Şeyx, dok. Saleh ibn Əbdüləziz Sindi
Mədinə İslam Universitetinin Əqidə kafedrasında professor

# SƏHABƏLƏRİN
## ümmət üzərində haqları

Tərcümə
İlham Vəlimətli



Tovhid.info

**ŞEYX, DOK. SALEH İBN ƏBDÜLƏZİZ SİNDİ**

# SƏHABƏLƏRİN ÜMMƏT ÜZƏRİNDƏ HAQLARI

**Müəllif: Şeyx, dok. Saleh ibn Əbdüləziz Sindi,**
**Mədinə İslam Universitetinin Əqidə kafedrasında professor**

**Tərcüməçi: İlham Vəlimətli**

Mədinə – 2024

# MÜQƏDDİMƏ

*Bağışlayan, qüdrətli, qalib və tək olan Allaha həmd, seçilmiş peyğəmbərinə, onun ailəsinə, mühacir və ənsarlardan olan xeyirli əshabələrinə salavat və salam olsun!*

Sonra isə, həqiqətən, Məhəmmədin (ﷺ) səhabələrini (Allah onlardan razı olsun) xatırlamaqla nəfslər sevinc yaşayır, məclislər və dərslər bəzənir. Necə belə olmasın ki, onlar Allahın qulları içərisindən seçilmişlər, insanların ən xeyirliləri və insanlar arasından çıxmış ən xeyirli ümmətdirlər. Onlar məziyyət, fəzilət, yüksək dərəcə sahibləri və dində hamını ötüb keçənlərdir.

Onların içərisində, Allahın onlardan, onların da Allahdan razı qaldıqları, dində hamını ötüb keçən ilk mühacirlər və ənsarlar vardır. Həmçinin onların içərisində elələri də vardır ki, ağac altında peyğəmbərinə (ﷺ) beyət etdikləri zaman Allah onlardan razı qalmışdır.

Onlar o kəslərdir ki, Allah onların qəlblərini təqva üçün sınağa çəkmiş, onları hidayət etmişdir. Məhz onlar ağıl sahibləridir. Onlara öz Rəbbi tərəfindən məğfirət və rəhmət vardır. Məhz onlar doğru yolda olanlardır. Rəbbi öz tərəfindən onları bir rəhmət, razılıq və içərisində onlar üçün tükənməz nemətlər olan cənnətlərlə müjdələyir.

Onlar o kəslərdir ki, özlərinə təqva kəlməsini vacib etmişdirlər və onlar bu kəlməyə və bu kəlmənin əhli olmağa daha layiq idilər. Onlardır ki, Allah imanları üstünə iman artırmaq üçün onların qəlblərinə rahatlıq göndərmişdir. Özlərinə heç bir pislik toxunmadan Allahın neməti və lütfü sayəsində geri dönənlər[1] də məhz onlardır.

Onlar o kəslərdir ki, Allah-taala onlar barəsində demişdir: *"Ey peyğəmbər! Sənə və sənə tabe olan möminlərə Allah kifayət edər"*.[2] Və onların məqamını bu sözündə açıqlamışdır: *"O səni həm öz yardımı, həm də möminlərlə qüvvətləndirdi"*.[3]

Onlar iffətli və xeyirli, təqvalı və saf olanlardır. Hansılar ki onların nəfsləri, canı, malı, övladı, ailə və yurdlarını tərk etməkdə dözümlülük göstərmiş, bu səbəbdən də vətənlərindən ayrılmış,

---

[1] Müəllif burada səhabələrin Həmra əl-Əsəd döyüşündəki qalibiyyətlərinə işarə edir.

[2] "əl-Ənfəl", 64

[3] "əl-Ənfəl", 62

dostlarını tərk etmiş, həmçinin Allah yolunda atalarını və qardaşlarını öldürmüşlər.[4] Onlar səbir edərək canlarını fəda etmiş, savabını Allahdan umaraq mallarını xərcləmiş, onlara qarşı düşmən münasibəti bəsləyənlərə Allaha arxalanaraq savaş açmış və hər bir doğma və sevgilidən Allahın razılığını üstün tutmuşdurlar.

Allahın lütfünü və razılığını diləyən, Allah və rəsuluna yardım edərkən yurdlarından çıxarılan və mallarından məhrum edilən mühacirlər onlardır; məhz onlar dürüst olanlardır.

Daha sonra mühacirlərin qardaşları olan ənsarlar, mühacirlərə təsəlli verənlər və digərlərini özlərindən üstün tutan insanlar qonşuluq bağlarına diqqət yetirmə baxımından ərəb qəbilələrinin ən şərəflisidirlər. O kəslər ki Allahın elçisi (ﷺ) onların yurdunu yaşayış və əmin-amanlıq yeri seçmişdir, onlar iffət və səbir, saflıq və nur sahibləridir.

*"Onlardan (mühacirlərdən) öncə (Mədinədə) yurd salmış, (sonra da) iman gətirmiş kimsələr (ənsarlar) öz yanlarına hicrət edənləri sevər, onlara verdiklərinə görə qəlblərində peşmanlıq hissi duymaz, özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tutarlar".*[5]

Əhli-sünnə və camaat, onların könülləri səhabələrin (Allah onlardan razı olsun) məhəbbəti ilə bürünmüş, onları sevməyi, üstün tutmağı uca Allaha ibadətdən saymışlar və səhabələrə (Allah onlardan razı olsun) qarşı nifrəti gizlədənlərdən də, düşmənçiliklərini aşkar edənlərdən də uzaq durmuşlar.

Uca Allahın bu sözü onlar barəsində gerçəkləşməkdədir: *"Onlardan (mühacir və ənsarlardan) sonra gələnlər deyirlər: Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Qəlblərimizdə iman gətirənlərə qarşı kinə yer vermə. Ey Rəbbimiz! Həqiqətən, Sən şəfqətlisən, rəhimlisən".*[6]

Daha sonra isə, həqiqətən, Məhəmmədin (ﷺ) səhabələrinin onun ümməti üzərində olan haqqı böyükdür. Xüsusilə, bu əsrdə qəlbləri xəstə olan, zəhərlərini hər bir yolla ətrafa yayanlar tərəfindən oxların onlara qarşı yönləndirildiyi bir vaxtda ara-sıra bu mövzuya toxunmaq yerinə düşər. Hətta əhli-sünnədən olan bəziləri də onlardan təsirlənmişdir. Onlardan bəziləri media və müasir rabitə vasitələri ilə səhabələrin (Allah onlardan razı olsun)

---

[4] Allaha və rəsuluna qarşı çıxdıqları və səhabələr ilə döyüş meydanında üz-üzə gəldikləri üçün
[5] "əl-Hucurat", 9
[6] "əl-Hucurat", 10

düşmənlərinin gətirdiyi şübhələri yayırlar və onların sayəsində də fitnə böyük bir hala gəlir. Allah yardım edəndir!

Mən də, öz növbəmdə, bu barədə özündə xatırlatma, islam əhli üzərində dəyərli səhabələrin (Allah onlardan razı olsun) haqlarının açıqlamasını şamil edən, bu məsələni qısaca, aydın üslubla açıqlayan və həmçinin özündə əhli-sünnənin bu mövzuda olan etiqadını daşıyan dəlillərlə dəstəklənmiş, əsərlərlə bəzədilmiş bir neçə səhifə yazılmasının önəmli olduğunu düşündüm.

Bu yazının qəbul olunması və ondan fayda götürülməsini qədri əzəmətli olan Allahdan ümid edərək bu işdə ondan yardım istəyirəm.

*Şeyx Saleh Sindi*

# SƏHABƏNİN TƏRİFİ

**"Səhabələr"** "səhabə" sözünün cəmidir. Ərəb dilində fail (فاعل) vəznində olan yalnız bu söz "fəaalə" (فعالة) kimi cəmlənir.[7]

"Səhabə" dini termin olaraq isə "İman etdiyi halda peyğəmbərlə (ﷺ) görüşən və islam dini üzərində vəfat edəndir".[8] Bu görüş sələflər və onlardan sonra gələn əksər alimlərin görüşüdür. Tərifdə qeyd olunan şərtlərdən[9] başqa səhabə vəsfinin sabit olması üçün digər şərtlərə ehtiyac duyulmur.

İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir: "Səhabə, peyğəmbərlə (ﷺ) yoldaşlığı uzun sürməsə, ondan (ﷺ) heç nə rəvayət etməsə belə, peyğəmbəri (ﷺ) müsəlman olduğu halda görəndir. Bu, sələflər və onlardan sonra gələn əksər alimlərin sözüdür".[10]

İmam Əhməd (Allah ona rəhmət etsin) demişdir: "Kim Allah rəsulu (ﷺ) ilə bir il, bir ay, yaxud bir gün, bir saat yoldaşlıq etmiş və yaxud sadəcə onu görmüşdürsə, onun Allah rəsulu (ﷺ) ilə yoldaşlıq etdiyi qədər səhabəliyi vardır".[11]

İmam Buxari (Allah ona rəhmət etsin) öz "Səhih" əsərində demişdir: "Kim peyğəmbər (ﷺ) ilə yoldaşlıq edibsə, yaxud onu (ﷺ) müsəlmanlardan kim görübsə, o onun (ﷺ) səhabələrindən sayılır".[12]

"Səhabə"nin tərifi barəsində bu qeyd olunanlar lüğəvi məna ilə də uyğunluq təşkil edir. Belə ki, "yoldaşlıq" sözü lüğətdə bir şeyi digəri ilə müqayisə etmək və bir şeyi digərinə yaxınlaşdırmaq mənasındadır. İbn Fəris demişdir: "Səhabə" sözündə keçən "sad", "hə", "bə" hərfləri bir mənşəli hərflərdir ki, bir şeyi müqayisə etməyə və bir şeyin digərinə yaxınlaşdırılmasına dəlalət edir və buna misal "yoldaş" (الصاحب) sözüdür".[13] Buna görə də Allah rəsulu (Allahın ona salavatı və salamı olsun) ilə yoldaşlıq etməyin müəyyən bir həddi yoxdur və bunun üçün uzun müddət birlikdə olmaq da şərt deyil.

---

7 "ən-Nihəyə" fi Ğarib əl-Hədis vəl-Əsər", 3 / 12

8 "əl-İsabə", 1 / 16

9 Tərifdə iki şərt qeyd olunub: 1) Peyğəmbərlə (ﷺ) görüşdükdə iman gətirmiş olmalı; 2) Vəfat etdikdə müsəlman olaraq vəfat etməli.

10 "İxtisar ulum əl-hədis" məa "əl-Bəhis əl-Həsis", 1 / 491

11 "əl-Kifəyə" fi ilm ər-Rivayə", 51

12 "Fədail əs-Səhabə", 3 / 5

13 "Məqayis əl-Luğa", 587

Bunu təsdiq edən dəlillərin bəziləri: Uca Allah buyurmuşdur: ***"Biz onu və gəmi əhlini xilas etdik".***[14] Həmçinin demişdir: ***"Şənbə əhlini lənətlədiyimiz kimi".***[15] Allah rəsulu (ﷺ) demişdir: ***"Həqiqətən də, siz Yusifin yoldaşları kimisiniz".***[16]

Bu dəlilər dəlalət edir ki, "yoldaşlıq" sözü ümumi isim olub az və çox yoldaşlığı şamil edir. Ona görə də misal üçün deyirlər: "Onunla bir il, bir ay, bir saat yoldaş oldu".

Həmçinin səhabə vəsfinin Allah rəsulu (ﷺ) ilə az bir zaman yoldaşlıq edənə də, hətta iman gətirdiyi halda onu (ﷺ) görənə də, aid edilməsinə açıq-aydın dəlalət edən dəlillərdən biri də Allah rəsulunun (ﷺ) bu sözüdür: *"İnsanlar üzərinə elə bir zaman gələcək ki, bir toplum insan Allah yolunda döyüşəcək və qarşı tərəfdən onlara belə deyiləcək: "Sizin içinizdə Allah rəsulunu (ﷺ) görən varmı?" Mücahidlər deyəcəklər: "Bəli". Bu səbəbdən də onlar qələbə qazanacaqlar. Sonra isə başqa bir toplum insan Allah yolunda döyüşəcək və qarşı tərəfdən onlara deyiləcək: "Sizin içinizdə Allah rəsulu* ilə (ﷺ) *yoldaşlıq edənlər görən varmı?" Mücahidlər deyəcəklər: "Bəli". Bu səbəbdən də onlar qələbə qazanacaqlar. Sonra isə başqa bir toplum insan Allah yolunda döyüşəcək və qarşı tərəfdən onlara deyiləcək: "Sizin içinizdə Allah rəsulu (ﷺ) ilə yoldaşlıq edənlərin yoldaşlarını görən varmı?" Mücahidlər deyəcəklər: "Bəli". Bu səbəbdən də onlar qələbə qazanacaqlar".*[17]

Yuxarıda qeyd olunan hədisdə ikinci sualda peyğəmbəri (ﷺ) görən, onunla yoldaşlıq edən, yəni səhabə kimi ifadə edilmişdir. Bu da dəlalət edir ki, Allah rəsulunu (ﷺ) görən səhabədir.[18]

Həmçinin dəlillərdən biri də Əbu-Hüreyranın (Allah ondan razı olsun) hədisidir. Allah rəsulu (ﷺ) demişdir: *"Artıq qardaşlarımızı görmək istədim. Səhabələr dedilər: "Məgər biz sənin qardaşın deyilikmi?" Dedi: "Siz mənim səhabələrimsiniz, qardaşlarımız isə hələ gəlməyib".*[19] Ənəsin (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə isə *"Siz mənim səhabələrimsiniz, amma qardaşlarım isə məni görmədikləri halda mənə iman gətirənlərdir"*[20] kimi qeyd olunmuşdur. Bu hədis dəlalət

---

[14] "əl-Ənkəbut", 15
[15] "ən-Nisa", 47
[16] Buxari, 664, Müslim, 418
[17] Buxari, 3649, Müslim, 2532
[18] "Minhəc əs-Sünnə", 3 / 386
[19] Müslim, 249
[20] Əhməd, 12601

edir ki, Allah rəsulunun (ﷺ) görmək istədiyi qardaşları və səhabələri arasındakı fərq onunla görüşmə və onu görməkdir.[21]

"Məlumdur ki, Allah rəsulunu (ﷺ) görən – bundan başqa sevincləri olmayan – səhabələrin onu (ﷺ) görməsi, kafirlərin və münafiqlərin onu sadəcə görməsi kimi deyildir.

Əksinə, Allah bu xeyirli insanları Allah rəsulunu (ﷺ) tabeliklə, itaətlə və ona məhəbbət bəsləyərək gördükləri, ona iman gətirməyə can atdıqları, onu dost tutduqları və ona qarşı düşmənçilik edənlərlə düşmənçilik etdikləri üçün şərəfləndirmişdir. Bu sadalananlar səhabələr üçün o fəxri dərəcənin qorunmasına bir həqiqətdir".[22]

Necə belə olmasın ki, onu (ﷺ) görməkdə, onunla görüşməkdə, ona yaxın olmaqda yalnız bəsirəti kor olmuş kəsin inkar edə biləcəyi xeyir, bərəkət və nur vardır.[23]

---

[21] "Minhəc əs-Sünnə", 7 / 389

[22] "Minhəc əs-Sünnə", 7/388

[23] Bununla da, aydın olur ki, zamanımızda bəzi rəzil bidət əhlinin Allah (ﷺ) ilə yoldaşlığı uzun sürməyən bəzi dəyərli səhabələrdən kin bəsləyərək bu əzəmətli şərəfi (səhabə adını) uzaqlaşdırmaq üçün yaydıqları xəbərlər yalnız açıq-aydın sapqınlıq, dəlillərə qarşı təkəbbürlülük, möminlərin yolundan uzaqlaşmaq, saleh sələflərə qarşı həddi aşmaq və əqidələrinə üsyan etməkdir (Qeyd müəllifə məxsusdur).

## Səhabələrin ümmət üzərində olan haqlarına gəldikdə: Birinci haqq: onları sevmək

Əhli-sünnə və camaat peyğəmbərin (ﷺ) səhabələrini Allah üçün və Allah xatirinə səmimi sevgi ilə sevirlər və etiqad edirlər ki, kim onları sevsə, onları dost tutsa, haqlarını qorusa və fəzilətlərinin fərqinə varsa, nicat tapanlarla birlikdə nicat tapacaqdır. Kim də onlara kin bəsləyərsə, onları söyərsə, səhabələrin düşmənlərinin onlara aid etdikləri şeyləri səhabələrə aid edərsə, həlak olanlarla birlikdə həlak olacaqdır. Buna dəlil uca Allahın bu sözüdür: ***"Onlardan (mühacirlərdən və ənsarlardan) sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Qəlblərimizdə iman gətirənlərə qarşı kinə yer vermə. Ey Rəbbimiz! Həqiqətən, Sən şəfqətlisən, rəhimlisən!"***[24]

Buxari və Müslimin "Səhih"ində rəvayət olunur ki, peyğəmbər (ﷺ) demişdir: *"Ənsarları sevmək imanın, ənsarlara nifrət isə nifaqın əlamətidir"*.[25]

Əgər bu hədis ənsarlar barəsində sabitdirsə, mühacirlər buna daha haqlıdırlar. Çünki onlar ümumilikdə daha fəzilətlidirlər. "Onlar Allahın yardımçılarıdırlar. Ənsarlar Allaha yardım etdikləri kimi mühacirlər də etmişdirlər".[26]

Quran və sünnədə Allah xatirinə sevməyin fəzilətinə dəlalət edən bütün dəlillər peyğəmbərin (ﷺ) səhabələrini sevməyi də özündə daşıyır, çünki onlar Allah xatirinə sevilməyə ən layiq olanlardır.

Ət-Təhavi (Allah ona rəhmət etsin) "Əl-Əqidə ət-Tahəviyyə" kitabında demişdir: "Biz Allah rəsulunun (ﷺ) səhabələrini sevirik, onların heç birinin sevgisində ifrata varmırıq, heç birindən uzaq durmuruq, onlara nifrət edənlərə və onları xeyirdən başqa bir şeylə xatırlayanlara nifrət edirik. Onları sevmək din, iman və ehsan, onlara nifrət isə küfr, nifaq və həddi aşmaqdır".[27]

Burada xatırlanması gözəl olan sözlərdən biri də imam Malikin (Allah ona rəhmət etsin) sözüdür: "Sələflər öz övladlarına Əbu-

[24] "əl-Həşr", 10
[25] Buxari, 3784
[26] "əl-Cəvab əs-Sahih", 2 / 267
[27] "əl-Əqidə ət-Təhaviyyə" məa şərh ibn Əbil-İzz, 467

Bəkri və Öməri sevməyi Qurandan bir surə öyrətdikləri kimi öyrədərdilər".[28]

Əbu-Nueym "Hilyə" əsərində Bişr ibn Hərisin belə dediyini rəvayət etmişdir: "Mənim nəfsimdə olan, mənə fayda verəcəyinə ən çox ümid etdiyim əməl Məhəmmədin (ﷺ) səhabələrini sevməkdir".[29]

Həmçinin o, Şüeyb ibn Hərbdən rəvayət edir ki, o belə demişdir: "Bir gün Süfyan əs-Sövri Asim ibn Məhəmmədin yanında xatırlandı və onlar Süfyanın tərifəlayiq xüsusiyyətlərini saymağa başladılar; hətta on beş məziyyət saydılar. Asim onlara dedi: "Bitirdiniz?" Amma mən onun barəsində bir fəzilət bilirəm ki, o sizin saydıqlarınızdan daha üstündür: Məhəmmədin səhabələrinə qarşı onun qəlbinin təmiz olması".[30]

---

[28] "əl-Huccə" fi bəyən "əl- Məhəccə", 2 / 338

[29] "Hilyə", 8 / 338

[30] "Hilyə", 7 / 27

## İkinci haqq: onların fəzilətlərinə, ədalətli olmalarına, bu ümmətin ən üstünləri və kamilləri olmalarına, haqqa və düzgünlüyə ən yaxın olduqlarına etiqad etmək

"Bu ümmətdə fəzilət, doğruluq, düzgünlük baxımından səhabələr kimisi olmamışdır".[31] Bu məsələ müsəlmanlar arasında qəti icma olan məsələlərdəndir ki, bu barədə rəzil bidət əhlinin düzənsiz görüşlərinin heç bir mənası yoxdur.

İbn Qeyyim "Nunuiyyə"də demişdir:

"O zaman ki alimlər icma etdi seçilmiş səhabələrin insanların ən xeyirli olmasına, bu bir zərurətdir ki, nə iki nəfər bunda ixtilaf etmiş, nə də iki qövl hekayət edilmişdir".[32]

Səhabələrin fəzilətinə dair dəlillər çoxdur. Belə ki, Allahın kitabı onlara olan xoş qoxulu təriflərlə doludur. Çünki Allah onların sadiqliyini, imanlarının doğruluğunu, ona olan sevgilərinin saflığını, zehinlərinin parlaqlığını, görüşlərinin zənginliyini və dürüstlüklərinin aydınlığını bilirdi.

Səhabələrin fəzilətinə dair Qurandan bəzi dəlillər: "Uca Allah buyurur: ***"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. (Allah) Onlar üçün (ağacları və qəsrləri) altından çaylar axan içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük uğurdur".***[33]

Həmçinin uca Allahın bu sözü: "***Allah yolunda öz malı və canı ilə cihad edən (mühacirlər) və sığınacaq verib köməklik göstərənlər (ənsarlar) məhz onlar bir-birinin dostlarıdır. İman gətirən, lakin hicrət etməyənlərə gəldikdə isə onlar hicrət etməyincə siz onları himayə etməyə borclu deyilsiniz. Əgər onlar din uğrunda sizdən kömək istəsələr, sizinlə aralarında müqavilə olan bir qövm əleyhinə (yardım) istisna olmaqla kömək etməyiniz gərəkdir. Allah sizin nə etdiklərinizi görür".*** Uca Allahın bu sözünə kimi ***"İman gətirib hicrət edən və Allah yolunda cihad edənlər və (mühacirlərə) sığınacaq verib (onlara) köməklik göstərənlər (ənsarlar) məhz onlar***

[31] "əd-Durrat əl-Mudiyyə fi əqidə əl-Firqa əl-Mərdiyyə" məa "Ləvami əl-Ənvar", 2 / 377
[32] "Nuniyyətu" ibn Qeyyim məa şərhihə "Təvdih əl-Məqasid", 2 / 461
[33] "ət-Tövbə", 100

*həqiqi möminlərdir. Onlar üçün bağışlanma və bol-bol ruzi vardır".*[34]

Və həmçinin uca Allahın bu sözü: *"Allah (müsəlmanlardan) bəzilərinin qəlbi (cihaddan) yayınmaq üzrə ikən peyğəmbəri, çətin anda onun ardınca gedən mühacirləri və ənsarı (əvvəlcə) tövbəyə müvəffəq etdi, sonra da onların tövbələrini qəbul buyurdu. Çünki Allah onlara qarşı çox şəfqətlidir, rəhmlidir".*[35]

Və həmçinin pak və nöqsansız Allahın bu sözü: *"Məhəmməd Allahın rəsuludur. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə rəhmlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən. Onların əlamətləri isə üzlərində olan səcdə izidir. Bu onların Tövratdakı vəsfidir. İncildə olan vəsfləri isə cücərtisini çıxarıb onu qüvvətləndirmiş, o da qalınlaşıb gövdəsi üzərində şax durmuş əkinçiləri heyran edən bir əkin kimidirlər. Allah möminlərin sayını artırır, özlərini də qüvvətləndirir ki, kafirləri qəzəbləndirsin. Allah onlardan iman gətirib saleh əməllər edənlərə bağışlanma və böyük bir mükafat vəd etmişdir".*[36]

Həmçinin uca Allahın bu sözü*: "O gün Allah peyğəmbəri və onunla birlikdə iman gətirənləri utandırmaz. Onların nuru önlərindən və sağ tərəflərində gedərkən onlar: "Ey Rəbbimiz! Nurumuzu bizim üçün tamamla və bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!" – deyəcəklər".*[37]

Həmçinin uca Allahın bu sözü: *"Bilin ki, aranızda Allahın peyğəmbəri vardır. Əgər o, bir çox işlərdə sizə itaət etsəydi, çətinliyə düşərdiniz. Lakin Allah sizə imanı sevdirmiş, onu qəlblərinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır. Məhz beləri doğru yolda olanlardır". "Bunlar Allahın lütfü və nemətі sayəsindədir. Allah (hər şeyi) biləndir, hikmət sahibidir".*[38]

Həmçinin uca Allahın bu sözü: *"Sizlərdən (mallarını Məkkənin) fəthindən əvvəl xərcləyib (kafirlərə qarşı) döyüşənlər (başqaları ilə) eyni deyillər. Onların dərəcəsi (mallarını fəthdən) sonra xərcləyib döyüşənlərdən daha üstündür. Allah onların*

[34] "əl-Ənfal", 72, 74
[35] "ət-Tövbə", 118
[36] "əl-Fəth", 29
[37] "ət-Təhrim", 8
[38] "əl-Hucurat", 7, 8

***hamısına ən gözəl olanı (cənnəti) vəd etmişdir. Allah nə etdiklərinizdən xəbərdardır".***[39]

Həmçinin uca Allahın bu sözü: ***"De: "Həmd olsun Allaha, salam olsun onun seçdiyi qullarına! Allah xeyirlidir, yoxsa ona şərik qoşduqlarınız?"***[40]

Ayədə qeyd olunan "Onun seçdiyi qullarına" sözü barəsində İbn Abbas (Allah ondan razı olsun) və Sövri (Allah ona rəhmət etsin) onların Məhəmmədin (ﷺ) səhabələri olduğunu demişdirlər.[41]

Həmçinin uca Allahın bu sözü: ***"Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz, (onlara) yaxşı işlər görməyi əmr edib, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz".***[42] Burada dəlil yönü açıq-aydındır. Ya ayədə qeyd olunan "ümmət" sözündə yalnız səhabələr qəsd edilir, ya da ki bütün ümmətə aiddir və səhabələr də ilk olaraq buraya daxildirlər.

Dəlillərdən biri də uca Allahın bu sözüdür: ***"Beləliklə, siz insanlara şahid olasınız, peyğəmbər də sizə şahid olsun deyə biz sizi orta bir ümmət etdik".***[43] Bu ayənin dəlil yönü bundan əvvəlki ayədəki kimidir. Həmçinin bu ümmətin üstünlüyünə dəlalət edən hər bir ayə və hədisə birinci daxil olanlar və buna daha layiq olanlar Məhəmmədin (ﷺ) səhabələridir.

Sünnədən olan dəlillərə gəldikdə isə bu dəlillərdən biri Allah rəsulunun (ﷺ) bu sözüdür: *"Ulduzlar səma üçün əmin-amanlıq əlamətidir, ulduzlar getdikdə vəd edilmiş şey yerinə yetəcəkdir. Mən də səhabələrim üçün əmin-amanlıq əlamətiyəm, mən getdikdə səhabələrimə vəd olunan yerinə yetəcəkdir. Səhabələrim ümmət üçün əmin-amanlıq əlamətləridirlər, onlar getdikdə ümmətimə vəd olunan yerinə yetəcəkdir".*[44]

Əbül-Abbas əl-Qurtubi demişdir: "Yəni nə qədər ki səhabələr həyatda idilər, din ayaqda, haqq zahir, düşmənlər üzərində qələbə çalmaq əldəedilən idi. Nə vaxt ki onlar vəfat etdilər, nəfsi istəklər qalib gəldi, düşmənlər zəfər çaldı, din məsələsi naqisliyə doğru getməyə başladı və hətta onun qədir-qiyməti o qədər geriləyəcək ki,

---

[39] "əl-Hədid", 10
[40] "ən-Nəml", 59
[41] "Fəthul-Qadir", 4 / 195
[42] "Əli-İmran", 110
[43] "əl-Bəqərə", 143
[44] "Müslim", 2531

yer üzündə "Allah, Allah" deyən bir kimsə belə qalmayacaq. Bu da Onun (ﷺ) ümmətinə vəd edilən şeydir".[45]

Həmçinin Allah rəsulunun (ﷺ) bu sözü: *"Mənim səhabələrimi söyməyin, sizdən biri Uhud dağı qədər sədəqə versə belə, onların verdiyi bir ovuca – heç onun yarısına da çatmaz".*[46]

Şövkani (Allah ona rəhmət etsin) bu hədisə qısaca gözəl bir izahedici qeyd yazmışdır: "Bu hədisdə xitab olunan islamı gecikmiş bəzi səhabələrin sədəqə verdiyi Uhud dağı qədər qızıl onları islamda qabaqlamış səhabələrin birinin sədəqə verdiyi bir ovuc qızıla və yaxud yarısına belə çatmırsa, mən güman etmirəm ki, bizim verdiyimiz Uhud dağı qədər qızıl onlardan birinin verdiyi toxum miqdarında olan qızıla və yaxud yarısına çatar".[47]

O dəlillərdən biri də Allah rəsulunun (ﷺ) bu sözüdür: *"Ən xeyirli insanlar mənim zamanımda yaşayan, sonra onların ardınca gələnlər, sonra da, onların ardınca gələnlərdir".*[48]

Bu ardıcıllığı və xeyir ilə vəsfi havadan danışmayan Allah rəsulu (ﷺ) söyləmişdir. Onun (ﷺ) düzənindən daha böyük düzənmi var?!

İbn Məsud (Allah ondan razı olsun) peyğəmbərin səhabələrini vəsf edərək demişdir – bu kimi rəvayətlər, həmçinin ibn Ömərdən[49], Həsən əl-Bəsridən[50] də (Allah onlardan razı olsun) rəvayət edilmişdir:

"Kim bir yol götürəcəksə, qoy artıq vəfat etmiş birinin yolunu götürsün, çünki həyatda olan bir kəs ona fitnənin bulaşmasından əmin deyildir. Budur, Məhəmmədin (ﷺ) səhabələri (Allaha and olsun), onlar bu ümmətin ən fəzilətliləri, ən xeyirxah, ən ixlaslı qəlbliləri, dərin elm sahibləri və bu ümmətin ən qənaətcil insanları idilər. Onlar elə bir qövmdür ki, Allah onları peyğəmbərinə (ﷺ) yoldaş, dininin yayılmasına da yardımçılar seçmişdir. Onların digərləri üzərində olan üstünlüyünü, dəyərini bilin, onların ardınca onların izi ilə gedin, əxlaqlarından, dinlərindən sevdiyiniz əməllərdən yapışın, çünki onlar, həqiqətən, doğru yol üzərində idilər".[51]

---

[45] "əl-Mufhim", 6 / 485
[46] "Buxari", 3673, "Müslim", 2541
[47] "İrşəd əs-Səil ilə Dəlail əl-Məsəil" məa "ər-Rasail əs-Sələfiyyə", 45
[48] Buxari, 3651, Müslim; 2533
[49] "Hilyə", 1 / 305
[50] "Cəmiu Bəyən əl-İlmi va Fadlihi", 2 / 195
[51] "Cəmiu Bəyən əl-İlmi va Fadlihi", 2 / 195 – 196

Əbu Amr əd-Dəni (Allah ona rəhmət etsin) demişdir:

***Bütün səhabələr yaxşılıq rəmzi***
***Seçilmiş, böyük bir xeyir əhlidir.***
***Ucaltmış onları Rəbbin ənamı,***
***Xüsusi fəzl, kəramət vermişdir.***[52]

Əgər insaflı biri səhabələrin gözəl sifətlərini, keyfiyyətlərini ətraflı düşünsə, görər ki, onlar elmdə, adillikdə, Allah yolunda cihadda və digər xeyir qapılarında olan üstün dərəcələri əldə etmişdirlər. Bununla da onlar "özlərindən əvvəlkiləri ötüb keçmiş, sonra gələnləri də geridə buraxmış, əbədi həyatı qazanmış, uca məqamlara sahiblənmişdirlər. İslam dininin bizə yetişməsinin, hər bir xeyirin və hidayətin təliminin, səadətin və qurtuluşun əldə edilməsinin səbəbi məhz onlardır... Ümmət qiyamət gününə kimi onların elminin, adilliyinin, Allah yolunda mübarizəsinin ardıncadır. Bunun üçün də bu ümmətdən olan hər kəs hər hansı bir faydalı elm məsələsini, yalnız onların köməkliyi və vasitəsilə əldə edir. Həmçinin onların Allah yolunda döyüşü və fəthləri sayəsində əmin-aman şəkildə yaşayır. Adillik və düzgünlük ilə hökm verən elə bir rəhbər, elə bir hakim yoxdur ki, bu şeylərin ona çatmasında səbəb səhabələr olmasın. Onlardır ölkələri qılıncla, qəlbləri imanla fəth edənlər, ölkələri adilliklə, qəlbləri elm və hidayətlə abadlaşdıranlar. Onlar üçün qiyamət gününə kimi ümmətin savabı qədər savab və buna əlavə olaraq onların özlərinin xüsusi əməlləri də vardır. Öz lütfü və rəhmətini istədiyinə məxsus edən Allah pak və nöqsansızdır".[53]

Şeyxülislam ibn Teymiyyənin (Allah ona rəhmət etsin) səhabələr haqqında dediyi söz necə də gözəldir: "Kim səhabələrin həyat yoluna və Allahın onlara bəxş etdiyi fəzilətlərə elm və bəsirət gözü ilə baxsa, yəqinliklə bilər ki, onlar peyğəmbərlərdən sonra məxluqatın ən xeyirliləridirlər. Onlar kimisi nə olub, nə də ki olacaq. Həqiqətən də, onlar ümmətlərin ən xeyirlisi və Allah yanında ən hörmətlisi olan bu ümmətin nəsilləri içərisindən seçilmişlərdir".[54]

---

[52] "əl-Urcuzə əl-Münəbbihə alə Əsmə əl-Qurra va ər-Ruvat va Usul əl-Qiraət", 179
[53] "Tariq əl-Hicrateyn", 648
[54] "Məcmu əl-Fətava əl-Vasitiyyə", 3 / 103

Elə bu yüksək fəzilət və tərifəlayiq şərəfli dərəcəyə görə əhli-sünnə və camaat ittifaq etmişlər ki, səhabələr (Allah onlardan razı olsun) hamısı adildirlər və onların içərisində adilliyinə tənə ediləcək biri yoxdur. Artıq Allah onların qədərlərini onlara çirkinlik qazandıracaq, tənə ediləcək şeylərdən təmizləmişdir. Onların hamısı imamlar, rəhbərlər və başçılardır. Bu da Allahın onları seçməsi, onların paklıqları barədə xəbər verməsi ilə məlumdur. Onlar ən xeyirli nəsil, insanlar içərisindən çıxarılmış ən xeyirli ümmətdirlər. Allahın öz peyğəmbəri (ﷺ) yoldaşlıq etmələri və ona yardım etmələrindən razı qaldığı kəslərdən daha adil biri yoxdur. Nə bu tərifdən daha üstün bir tərif, nə də bu təmizə çıxarmadan daha kamili var.

İbn Abdul-Bərr (Allah ona rəhmət etsin) demişdir: "Həqiqətən, səhabələr (Allah onlardan razı olsun) müsəlmanlardan olan haqq əhlinin (onlar əhli-sünnə və camaatdır) onların hamısının adil olduqları barədə icma etməsinə görə biz səhabələrin tərcümeyi-halları barədə axtarış etməkdən vaz keçmişik.[55]

***"Hamısı yaxşılıq, təqva əhlidir,***
***Bütün xeyirlərə layiq əhldir".***[56]

[55] "əl-İstiab", 1 / 19

[56] "Qasidətu Əbi Mərvan ƏbdülMəlik ibn İdris əl-Cəzəiri fil-Ədəb va əs-Sünnə", 57

## Üçüncü haqq: dəlillərdə varid olduğu kimi səhabələrin birinin digərindən üstün olmasına etiqad etmək

Əhli-sünnə və camaata görə, təqrir edilmiş məsələlərdəndir ki, səhabələr fəzilətdə müştərəkdir, əfzəllikdə isə bəziləri digərlərindən fərqlənirlər, fəzilətcə daha aşağı olanın haqqını tapdamadan bəzi səhabələr digərlərindən üstündürlər.

Ümumi olaraq səhabələrin ən fəzilətliləri cənnətlə müjdələnmiş on səhabədir. Onlar – dörd raşidi xəlifə: Əbu Bəkr, Ömər, Osman və Əli, (Allah onlardan razı olsun) yerdə qalan altısı isə ibn Əbi-Davudun "Həiyyə" əsərindəki bu sözündə cəm edilmişdir:

***"Səid və Səd, ibn Avf və Talhə,***
***Amir Fəhri və Zubeyr layiqdir o tərifə".***[57]

Bu onluğun içində ən fəzilətliləri dörd xəlifədir və onların əfzəllikdəki ardıcıllığı xilafətdəki ardıcıllığı kimidir.[58]

***"Sev əhli beyti, səhabələri,***
***Yay onlardan olan gözəllikləri.***
***Bəxş et sən onlara saf sevgini,***
***Tələs, irəli çək iki Öməri.***[59]
***Ardınca Osmandır, bir də ki Əli,***
***Şəmri döyüşlərdə cəsur nişanəli".***[60]

Şəkk yoxdur ki, bu iki şeyxin – Əbu Bəkr və Ömərin (Allah onlardan razı olsun) islam dinində yeri çox ucadır. Onlar bu ümmətin peyğəmbərindən (ﷺ) sonra, həmçinin digər peyğəmbərlərdən sonra mütləq olaraq bəşərin ən fəzilətliləridirlər. İkisi arasında da Əbu Bəkr önə çəkilir (Allah hər ikisindən razı olsun).

Bu məqamda Əbu Cəfər əl-Bəqirin (əhli beytin hörmətli seyidlərindən) (Allah ona rəhmət etsin, ondan razı olsun) Əbu Bəkr və Ömər barəsində dediyi sözün qeyd edilməsi gözəl olar: "Kim

---

[57] Mənzumə ibn Əbi-Davud "Həiyyə" məa şərhihə "Ət-Tuhfətus-Səniyyə", 9
[58] Məcmuul-Fətava, 3 / 162, Əl-İstiab, 3 / 1117 – 1118
[59] Əbu Bəkr və Ömər (Allah onlardan razı olsun) nəzərdə tutulur.
[60] "Qasidətu Əbi Mərvan Abdil-Məlik ibn İdris əl-Cəzəiri fil-Ədəb va əs-Sünnə", 57

Əbu Bəkr və Ömərin (Allah onlardan razı olsun) fəzilətinin fərqinə varmırsa, artıq sünnədən cahil qalmışdır".[61]

Əş-Şabi (Allah ona rəhmət etsin) demişdir: "Əbu Bəkri və Öməri sevmək, fəzilətlərini tanımaq sünnədəndir".[62]

Cənnətlə müjdələnmiş on səhabənin ardınca Bədr əhli, sonra Uhud əhli, sonra isə Ridvan beyətində iştirak edənlər gəlir. Bu ardıcıllığı bəzi alimlər – ibn Kəsir[63], ibn Salah[64], ən-Nəvavi[65] kimi – belə qeyd etmişdirlər. Bəzi alimlər isə Ridvan beyətində iştirak edənləri fəzilət baxımından Uhud əhlindən önə çəkmiş,[66] bəziləri isə Uhud əhlindən sonra Əhzab döyüşündəki səbat əhlini, sonra isə Ridvan beyətində iştirak edənləri qeyd etmişlər.[67] Allah daha doğrusunu bilir!

Ümumiyyətlə, əhli-sünnə və camaat mühacirləri ənsarlardan,[68] beləcə də, islama öncə gələnləri sonradan gələnlərdən daha üstün hesab edirlər.

Səhabə qadınlara (Allah onlardan razı olsun) gəldikdə isə ən əfzəlləri üçdür: Xədicə, Fatimə, Aişə (Allah onlardan razı olsun).

Şeyxülislam Əbül-Abbas ibn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: "Bu ümmətin ən fəzilətli qadınları Xədicə, Aişə və Fatimədir. Onların arasında birinin digərindən üstün tutulmasına gəldikdə isə məsələ mübahisəlidir və təfsilat vardır".[69]

Həmçinin elm əhlinin çoxunun dediyi "Səhabələrdən hər biri onlardan sonra gələn hər kəsdən daha üstündür"[70] sözünün də burada qeyd edilməsi yerinə düşər. Bunun əksini necə təsəvvür etmək olar? Onlar peyğəmbərlə (ﷺ) görüşə nail olmuşlar, onlar o kəslərdir ki, onlardan sonra gələnlər Uhud dağı mislində qızıl sədəqə versələr belə, səhabələrin verdiyi bir ovuca – heç yarısına da çatmaz; bəs namazları, cihadları və digər əməlləri necə?

Necə səhabələr barəsində bunun əksini təsəvvür etmək olar? Uca Allah onlar haqqında demişdir: ***"Məhz onlar doğru yolda***

---

[61] "əl-Huccətu fi Bəyən əl-Məhəccə" va "Şərhu Əqidəti Əhli əs-Sünnə", 2 / 350
[62] "əl-Huccətu fi Bəyən əl-Məhəccə" va "Şərhu Əqidəti Əhli əs-Sünnə", 2 / 338
[63] Bax: "əl-Bəis əl-Həsis", 183
[64] Bax: "Müqaddimə ibn Salah", 1 / 264 – 265 s.
[65] Bax: "ət-Təqrib va ət-Teysir li Mərfəti Sünnə əl-Bəşir ən-Nəzir", 93
[66] "Ləvami əl-Ənvar əl-Bəhiyyə", 2 / 271 – 372 s.
[67] "Məaric əl-Qabul", 2 / 371 – 372
[68] "Ləvamiul-Ənvar əl-Bəhiyyə", 2 / 372
[69] "Məcmu əl-Fətava", 2 / 471
[70] Bax: "Fəth əl-Bəri", 7 / 7

***olanlardır",[71] "Allah onların hamısına ən gözəl olanı (cənnəti) vəd etmişdir".[72]***

Necə səhabələr barəsində bunun əksini təsəvvür etmək olar? Halbuki peyğəmbər (ﷺ) onlar haqqında demişdir: *"Ən xeyirli insanlar mənim zamanımda yaşayanlardır?"*[73]

Muafə ibn İmrandan (Allah ona rəhmət etsin) soruşuldu: "Müaviyə ibn Əbu Süfyanla (Allah ondan razı olsun) müqayisədə Ömər ibn Əbdüləzizin yeri haradadır?" O bu sualdan şiddətli şəkildə qəzəbləndi və dedi: "Heç kəs Allah rəsulunun (ﷺ) səhabələri ilə müqayisə edilməz, Müaviyəyə gəldikdə isə o, Allah rəsulunun səhabəsi, nikah yolu ilə qohumu, katibi və Allahın vəhyini yazmağa əmin hesab etdiyi biridir".[74]

İmam Əhmədə (Allah ona rəhmət etsin) deyildi: "Kimsə peyğəmbər (ﷺ) səhabələri ilə müqayisə edilər?" Dedi: "Bundan Allaha sığınıram!" Deyildi: "Müaviyə Ömər ibn Əbdüləzizdən daha üstündür?" Dedi: "Əlbəttə. Allah rəsulu (ﷺ) demişdir: *"Ən xeyirli insanlar mənim zamanımda yaşayanlardır"*.[75]

Həmçinin İmam Əhməd (Allah ona rəhmət etsin) demişdir: "Səhabələrdən Allah rəsulu (ﷺ) ilə ən az yoldaşlıq edəni bütün saleh əmələri yerinə yetirdikləri halda Allaha qovuşsalar belə, Allah rəsulunu görmədən yaşayanlardan daha üstündür".[76]

Əgər soruşulsa ki, bəs peyğəmbərin (ﷺ) *"Sizin arxanızca səbir günləri gələcək. O günlərdə səbir etmək ovucda köz tutmaq kimidir. O günlərdə saleh əməl edənə onun əməlini edən əlli kişinin savabı kimi savab vardır". Deyildi: "Ey Allahın elçisi! Onlardan əlli kişinin savabı kimi?" Dedi: "Sizdən əlli kişinin savabı kimi".*[77]

Cavab odur ki, müəyyən bir işdə üstün tutmaq ümumilikdə üstün tutulmanı gərəkli etmir. Bu o anlama gəlir ki, yuxarıda qeyd olunan hədisdə keçən günlərdə səbir etməyin savabı əlli səhabənin yalnız səbir etmə savabından daha üstündür. Belə olan təqdirdə, bu, müəyyən bir əməldə üstün tutmaq sayılır, ümumilikdə deyil. Əl-Hafiz ibn Həcər demişdir: *"O günlərdə saleh əməl edənə onun əməlini*

---

[71] "əl-Hucurat", 7
[72] "əl-Hədid", 10
[73] Buxari, 3651; Müslim, 2533
[74] Bax: "Tərix mədinə Diməşq", 9 / 208
[75] Buxari, 3651; Müslim, 2533; bax: "əs-Sünnə" lil Xalləl, 2 / 435
[76] "Şərh Usul İtiqad Əhli əs-Sünnə" lil Ləlakəi, 1 / 160
[77] Tirmizi, 3058; Əbu Davud, 4341; ibn Məcə, 4014; əl-Albani "əs-Silsilətus-Sahihə", 494-də səhihləşdirmişdir.

*edən əlli kişinin savabı kimi savab vardır"* hədisi səhabə olmayanların səhabələrdən daha üstün olduqlarına dəlalət etmir. Çünki mücərrəd olaraq savabın çoxluğu ümumi üstünlüyü gərəkli etmir. Həmçinin bir əməlin savabı ona bənzər əməllər baxımından biri digərinə üstün gəlir, amma peyğəmbəri (ﷺ) görənin əldə etdiyi o görüşməyin fəzilətinin çoxluğuna gəldikdə isə bu məsələdə səhabəyə tay biri yoxdur".[78]

[78] "Fəth əl-Bəri", 7 / 7

## Dördüncü haqq: səhabələri daim xeyirlə yada salmaq, mədh etmək və onların etdiyi gözəl əməlləri yaymaq

*"Sev əhli beyti, səhabələri,*
*Yay onlardan olan gözəllikləri".*[79]

Şəkk yoxdur ki, səhabələri xeyirlə yada salmaq, mədh etmək və onların etdiyi gözəl əməlləri yaymaq, onları sevməkdən qaynaqlanır və bu məsələ əhli-sünnənin bu məsələ barəsində söylədiklərinin bir-biri ilə bütövlüklə üst-üstə düşdüyü və etiqad kitablarında yazıya aldıqları bir məsələdir.

Əl-Muzəni (Allah ona rəhmət etsin) demişdir: "Səhabələr, onların fəzilətləri barəsində danışılır, etdikləri gözəl əməllər ilə xatırlanır".[80]

İbn Əbu-Zəmənin (Allah ona rəhmət etsin) demişdir: "Əhli-sünnənin sözlərindəndir ki, hər kəs peyğəmbərin (ﷺ) səhabələrini sevməyi etiqad etməli və onların gözəl əməllərini və fəzilətlərini yaymalıdır".[81]

İbn Əbu-Davud demişdir:

***"Söylə səhabələr barədə ən xeyirli sözləri,***
***Gəl olma eyibləyən, pisləyən bir tənəçi".***[82]

---

[79] "Qasidətu Əbi Mərvan Abdil-Məlik ibn İdris əl-Cəzəiri fil-Ədəb va əs-Sünnə", 57
[80] "Şərh əs-Sünnə", 87
[81] "Usul əs-Sünnə" libni Əbi Zəmənin, 263
[82] Mənzumə ibn Əbi-Davud "Həiyyə" məa şərhihə "Ət-Tuhfətus-Səniyyə", 10; Təlif: Abdurrazzəq əl-Bədr

## Beşinci haqq: Allahın onlara rəhm etməsinə və onların cənnət əhli olduqlarına ümumi olaraq şahidlik etmək. Kitab və Sünnədə (cənnət əhli olduqları) müəyyən edilmiş səhabələrə isə xüsusi olaraq şahidlik etmək

Beləliklə, əhli-sünnə və camaat ümumi olaraq etiqad edir ki, peyğəmbərin (ﷺ) səhabələri cənnət əhlindəndir.[83] Artıq buna açıq-aydın dəlalət edən ayələr bu yazıda keçmişdir. Uca Allahın bu sözü kimi: ***"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. (Allah) Onlar üçün (ağacları və qəsrləri) altından çaylar axan içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük uğurdur".***[84]

Həmçinin bu sözü: ***"Allah onların hamısına ən gözəl olanı (cənnəti) vəd etmişdir".***[85]

Həmçinin əhli-sünnə istər Kitabda, istərsə də Sünnədə varid olan vəhydə (cənnət əhli olduqları) müəyyən edilmiş, cənnətlə müjdələnmiş on səhabə kimi – Abdullah ibn Sələm,[86] Qeys ibn Sabit,[87] Ukəşə ibn Mihsan[88] və onlarla digər səhabələr[89] (Allah onlardan razı olsun). Əbu Osman əs-Sabuni demişdir: "Allah rəsulunun (ﷺ) öz səhabələrindən şəxsən (cənnət əhli olduqları barədə) şahidlik etdiklərinə gəlincə isə hədis əhli də onlar üçün Allah rəsulunun sözünü və onlara olan vədini təsdiq edərək bu barədə şahidlik edirlər. Çünki o (ﷺ) onlar barəsində olan bu fəzilətə yalnız (vəhy vasitəsi ilə) bildikdən sonra şahidlik etmişdir. Uca Allah öz rəsuluna (ﷺ) qeybindən istədiyi şeyləri göstərmişdir".[90]

---

[83] "əl-Fasl", 4 / 225 – 226; "əş-Şəriə", 4 / 1633; "Ləvami əl-Ənvar", 2 / 389
[84] "ət-Tövbə", 100
[85] "əl-Hədid", 10
[86] Buxari, 3812
[87] Buxari, 3613
[88] Buxari, 5705; Müslim, 374
[89] Şeyx Abduləziz əs-Salman "əl-Kəvaşiful-Cəliyyə fi məani əl-Vasitiyyə", 689 – 694 s. -də cənnət ilə müjdələnən 41 səhabənin (Allah onlardan razı olsun) adını qeyd etmişdir.
[90] "Əqidə əs-Sələf va Əshab əl-Hədis", 287; bax: "Məcmu əl-Fətava", 3 / 153

## Altıncı haqq: onlar üçün dua etmək, Allahdan bağışlanma istəmək və adları çəkiləndə "Allah onlardan razı olsun" demək

Əhli-sünnə və camaat yekdil rəyə gəlmişlər ki, vacib olan səhabələri mədh etmək, onlar üçün bağışlanma istəmək, onlara rəhmət oxumaq və onlar üçün Allahın razılığını diləməkdir".[91]

Bu ona görədir ki, müsəlmanların qəlbləri Məhəmmədin (Allahın ona salamı və salavatı olsun) səhabələrinə (Allah onlardan razı olsun) qarşı məhəbbət və onların qədir-qiymətinin etirafı ilə dolduqda dilləri də onlar üçün dua ilə dolub-daşdı, istiğfara adət etdi.

İbn əl-Mübarək (Allah ona rəhmət etsin) demişdir:

***"Necə ki əmr edildim onlara istiğfara,***
***Heç tərk etməm bu işi gizlində və aşkara".***[92]

Hətta onlar üçün Allahın razılığını istəmək adət baxımından onlara xas olan ən aydın duadır.[93]

Az qalır ki, onlardan hansının adı çəkilsə, yalnız "Allah ondan razı olsun" sözü ilə yanaşı çəkilsin. Bu məsələ müsəlmanların yekdil rəydə olduğu məsələlərdəndir. Çünki uca Allah bizə onlardan razı qaldığını xəbər vermişdir: ***"Allah onlardan, onlar da Allahdan razıdırlar".***[94] Əş-Şövkəni (Allah ona rəhmət etsin) demişdir: "Artıq bu ümmətin əksəriyyəti, sələflərinin və xələflərinin böyük çoxluğu səhabələrə "Allah onlardan razı olsun", onlardan sonra gələnlərə də "Allah onlara rəhmət etsin" deməyə, onlar üçün Allahın bağışlamasını və əfvini istəməyə adət etmişlər. Necə ki uca Allahın sözü də bizi buna irşad etmişdir: ***"Onlardan (mühacirlərdən və ənsarlardan) sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Qəlblərimizdə iman***

---

[91] "əs-Sarim əl-Məslul" , 1085

[92] "Divan ibn əl-Mübarək" , 21

[93] Bax: "əs-Silsilə əl-Əhədis əd-Daifə"; lil-Albani, 11 / 770 (Allah onlardan razı olsun) sözünün səhabələrə xas olaraq deyilməsi qeyd olunduğu kimi adət üzrədir. Yəni elm əhli və müsəlmanlar buna adət etmişdir. Amma icazəlik baxımından isə, səhabələrdən qeyriləri üçün də Allahın razılığını istəmək icazəlidir. Bax: "əl-Məcmu"li ən-Nəvavi, 6 / 172

[94] "əl-Mücadilə", 22

***gətirənlərə qarşı kinə yer vermə. Ey Rəbbimiz! Həqiqətən, Sən şəfqətlisən, rəhmlisən!"***[95]

[95] "əl-Həşr", 10; "Fəthül-Qadir", 4 / 302

## Yeddinci haqq: onların xətaları barədə susmaq və bu haqda bilinən xəbərlərə göz yummaq

Əhli-sünnə və camaat şəriətin gərəkli etdiyi orta yolda olan camaatdır. Onlar həddi aşmadan və sapmadan ən uzaq olan insanlardır. Məhz buna görə də onlar etiqad edirlər ki, səhabələrin (Allah onlardan razı olsun) yüksək məqama sahib olması onların günahdan qorunmuş olmalarına, həmçinin ədalətli olmaları da onların xətaya düşməməsini ifadə etmir.

Bununla yanaşı da, mümkün deyil ki, səhabələrdən başqa insanların etdiyi xətalarla onların (Allah onlardan razı olsun) etdiyi xətalar müqayisə olunsun. Bunu iki toplumun da həyat yolunu anlayan dərk edər.

Sonra isə səhablər haqqında varid olmuş xəta və yaxud günah olması kimi bildirilən xəbərlər heç də orada əlavələrin və naqisliklərin olmasından və yaxud əslən sabit olmamaqdan (çoxu da belədir) xali deyildir. Bu kimi xəbərlər tərəddüd edilmədən rədd edilir, kənara atılır. Və yaxud da varid olmuş xəbər səhih olur və onun yaxşıya yozulacaq bir səbəbi olur. Bax burada o xəbərə xoş niyyətlə yanaşılması zəruridir.

Əgər müsəlman kəs sadə müsəlmanlar barədə gözəl zənn etmək ilə məsuldursa, bəs müsəlmanların öndə gedənləri bərədə necə?!

İmanın ən zəif dərəcəsi onlar barəsində ortaya çıxmış xəbərin icazəli təvildən, səhv və ehtiyatsızlıq üzündən və yaxud onların (səhv edərlərsə) bir, (haqqa isabət edərlərsə) iki savab qazanacaqları ictihaddan dolayı baş vermişdir deyə yanaşılmasıdır.[96]

Nə olursa-olsun, onlar nə günah etsələr də, beş məsələ bu günahları əhatə edir:

**Birincisi**, o günahlardan tövbə etmələri. Heç kəsə sirr deyil ki, səhabələr insanlar içərisində tövbəyə ən çox tələsən kəslər idilər. Məlumdur ki, "Günahdan tövbə edən günah etməmiş kimidir".[97] Və onların Allah yanında olan kəramətləri və dərəcələrinə görə tövbənin qəbul olunmasına daha haqlıdırlar.

**İkincisi,** etdikləri böyük saleh əməllər səbəbindən bağışlanmaları. Saleh əməllər günahları silir. Səhabələrin gözəl

[96] Bax: "Məcmu əl-Fətava", 3 / 155

[97] İbn Məcə, 4250; İbn Həcər "Fəth əl-Bəri"də hədisi həsənləşdirmişdir. (13 / 471)

əməllərinin (necə ki artıq məlumdur) şəni böyük, mükafatı çoxdur. Necə ki bu barədə açıqlama keçmişdir.

**Üçüncüsü**, islama daxil olmaqda hamını ötüb keçmələri və Allah rəsulu (ﷺ) ilə birlikdə cihad etmələri səbəbindən bağışlanmaları. Necə ki Allah rəsulu (ﷺ) Bədr əhli barəsində demişdir: "Sən nə bilirsən, bəlkə, Allah Bədr əhlinə baxmış və demişdir: *"Nə istəyirsiniz, edin, artıq sizi bağışlamışam"*.[98]

**Dördüncüsü**, peyğəmbərin (ﷺ) şəfaəti səbəbindən bağışlanmaları. Əgər peyğəmbər (ﷺ) onun şəfaətinin Allaha heç bir şeyi şərik qoşmayan tövhid əhlinə aid olduğunu xəbər vermişdirsə,[99] bəs müvahhidlərin öndə gedənləri və insanların Allah rəsuluna (ﷺ) ən yaxın olanları necə?! Şəkk yoxdur ki, onlar peyğəmbərin (ﷺ) şəfaətinə digərlərindən daha haqlıdırlar.

**Beşincisi**, dünyada ikən başlarına gəlmiş bəla və sınaq səbəbindən bağışlanmaları. Şəriətdə məlum olduğu kimi bəlalar günahlara kəffarədir.

Bütün bunları qeyd etməkdə məqsəd əhli-sünnə və camaatın üsullarından birinin də "Onların qəlbləri və dilləri Allah rəsulunun səhabələrinə qarşı salamatdır"[100] olduğunu bəyan etməkdir. Zəruri olan müsəlman bir kəsin qəlbinin və dilinin səhabələrə atılan böhtandan, onları hörmətdən salmaqdan, onların qeybətini etməkdən salamat olmasıdır. Bu doğru yoldan yalnız qəlbi qüsurlu kəslər uzaq durar.

Süfyan ibn Uyeynə demişdir: "Kim Allah rəsulunun (ﷺ) səhabələri haqqında pis bir söz söyləyərsə, o, hava[101] əhlindəndir".[102]

İmam Əhməd (Allah ona rəhmət etsin) demişdir: "Kim Allah rəsulunun (ﷺ) səhabələrindən birini belə, hörmətdən salarsa və yaxud səhabədən baş verən hansısa bir hadisəyə görə ona nifrət edərsə və yaxud onun qüsurlarını danışarsa, bütün səhabələrə rəhmət oxuyunca və qəlbi onlara qarşı salamat olunca o, bidətçi sayılır".[103]

---

[98] Buxari,3007; Müslim,3494

[99] Müslim,199

[100] "Məcmu əl-Fətəva", 3 / 152

[101] Bidət əhli və onlara bənzəyənlər

[102] "Şərh əs-Sünnə" li əl-Bərbahəri, 75

[103] "Şərh Usul İtiqad Əhli əs-Sünnə" li əl- Ləlakəi, 1 / 169

## Səkkizinci haqq: səhabələrin arasında baş verən mübahisələr barədə susmaq və onlara girişməmək

Səhabələrin (Allah onlardan razı olsun) arasında baş vermiş fitnə, döyüş, mübahisə, çəkişmələr haqqında müsəlmanın üzərinə vacib olan bütün bunlardan qaçınmaq, örtmək və susmaqdır.

***“Susuruq səhabələr arasında olanlara,***
***Təsdiq edib ictihadın əcrini biz onlara”.*[104]**

Artıq əhli-sünnə və camaatın kitabları Allah rəsulunun səhabələri arasında baş vermiş mübahisələrdə onların (xəta edərlərsə) bir, (haqqa isabət edərlərsə) iki savab qazanacaqları ictihadan dolayı baş verdiyini etiqad etməklə yanaşı, bu mübahisələrə girişməyin qadağan olması barədə yekdil rəydədirlər.

***“Doğru yanaşma səhabələr arasındakı fitnələrə***
***Susmaqdır, hər biri ictihad əhlidir deyə”.*[105]**

Bir neçə məsələ vardır ki, buna işarə edir:

**Birinci məsələ** – peyğəmbərin (ﷺ) əmrinə tabe olmaq: *“Səhabələrim barədə danışıldıqda susun!”*[106]

**İkinci məsələ** – bu işdə nə elmi, nə də ki əməli bir fayda var. *“Bir kəsin islamının gözəlliyindəndir ki, özünə aid olmayan şeyləri tərk etsin”*.[107] Ona görə ki səhabələr arasında baş verən döyüşlər, fitnələr ictihad səbəbindən ortaya çıxmışdır. Hər iki tərəf bu məsələlərdə öz rəyinə görə haqqı dəstəkləmiş, heç də bir-birilərini eyibləməkdən və nifrətdən dolayı olmamışdır. (Əslində, səhabələr arasında baş vermiş) Bu məsələlər daha çox qazının kimi isə ədəbləndirmək üçün vurmasına oxşardır.

Səhabələr barədə zənn etmək lazımdır ki, bu hadisələr bitdikdən sonra onların nəfslərindən o çəkişmələr yoxa çıxmışdır.

---

[104] “əz-Zubd fi fiqh əş-Şəfii”, 8; libni Raslan

[105] “Nazm əl-Cövhəra əl-Fəridə fi təhqiqi əl-Əqidə”,43

[106] “Mucəm əl-Kəbir” li ət-Təbərani, 1427; İraq “Təxric əl-İhyədə” hədisi həsənləşdirmişdir. Bax: “əs-Silsilə əs-Sahihə”, 34

[107] “Musnəd” Əhməd, 1737; Hədis barədə araşdırma üçün bax: “Cəmi əl-Ulum va əl-Hikəm”, 1 / 113

Bəs onlardan sonra gələn və bu məsələlərə heç bir aidiyyəti olmayan kəslərə nə olub?![108]

Ömər ibn Əbdüləziz (Allah ona rəhmət etsin) necə də gözəl demişdir: "Allah mənim əlimi bu qana bulaşmaqdan təmiz saxlamışdır; mən də dilimi ona bulamaq istəmirəm".[109]

**Üçüncü məsələ** – bu məsələlərə girişmək sonu yaxşı bitməyən nəticələrə gətirib çıxarır. Belə ki, qəlbdə Allah rəsulunun (ﷺ) səhabələrindən hər hansı birinə qarşı nifrət oyadır. Bu da bəladır, özü də, necə bir bəla. Harama aparan səbəblərin qarşısı almaq isə şəriətdə bir əsasdır. Bərbəhəri (Allah ona rəhmət etsin) demişdir: "Səhabələrin nə xətaları, nə aralarında baş vermiş döyüşlər, nə də onlar barədə bilmədiyin məlumatları danışa, nə də ki bu barədə danışanı dinləyə, çünki bu barədə eşitsən, qəlbin salamat olan deyil".[110]

*"Gəl həzər et, onların fəzilətini təqdir etməz lağlağıdan,*
*Kaş biləydin, bunlar hamısı sadir olub bir ictihaddan,*
*Uzaq dur, zəlillik olsun payı, onları tərk edənin uca Allahdan".[111]*

**Dördüncü məsələ** – yalan, nifaq və bidət əhlindən olanlar bu babda çoxlu məsələlər uydurmuşlar. Belə isə çoxunun zəif və uydurmaçı ravilər yolu ilə rəvayət edilmiş əsərlər üzərində necə doğru hökm bina etmək olar?

Əgər səhabələrin arasında baş verən fitnələr barədə rəvayətlərin ən geniş məsdəri tarix kitablarıdırsa, məlum məsələdir ki, ümumiyyətcə, tarix kitabları doğru və yanlış xəbərlərlə doludur və insanların adətidir ki, əldə etdikləri bütün xəbərləri oraya əlavə etsinlər. Belə olduğu halda, səhabələrin arasında baş verən fitnələrə girişmək kimi və bidət əhlinin marağı olan təhlükəli məsələlərdə bu kitablara necə etibar etmək olar?!

Sonra isə öncədən keçdiyi kimi səhabələr barədə varid olan xəbərlərdən səhih olan o az hissəyə, onların fəzilətinə və dərəcələrinə layiq olduğu üzrə yanaşılması mümkündür.

---

[108] Bax: "ət-Təhrir va ət-Tənvir", 28 / 98
[109] "Hilyə əl-Əvliyə", 9 / 114
[110] "Şərh əs-Sünnə" lil-Bərbahəri, 112-113; bax: Siyar Əaləm ən-Nubələ, 10 / 92
[111] "əd-Durra əl-Mədiyyə" məa şərh: "Ləvamiu əl-Ənvar əl-Bəhiyyə", 2 / 385

İbn Dəqiq demişdir: "Səhabələr arasında baş vermiş mübahisələrdən nəql olunan xəbərlər barəsində ixtilaf etmişdirlər. Bu rəvayətlərdən bəzisi batil və yalandır ki, ona diqqət edilməz. Səhih olanları isə xeyirə yozuruq. Çünki onlar artıq Allah tərəfindən təriflənmişdirlər. Sonradan deyilmiş, təvil ehtimal olunan, şübhəli, yanlış sözlər açıq-aşkar bilinəni aradan qaldırmaz".[112]

**Beşinci məsələ** – o zaman fitnə və döyüş zamanı olduğundan orada baş vermiş çətinliklərin həqiqəti üzərində durmaq; çünki bu kimi hallarda işlər qarışar və olduğu kimi aşkar olmaz. Belə olduqda da bu məsələdən bütünlüklə qaçınmaq daha uyğun olandır.

Ona görə də kim dininin salamat qalmasını istəyirsə, bu iyrənc mübahisədən nəfsini uzaq tutsun, qəlbini onların sevgisi ilə doldursun, dili də onlar üçün üzr axtarmağa və "Allah onlardan razı olsun" deməyə adət etsin.

[112] Şərh "əl-Fiqh əl-Əkbər", 102

## Doqquzuncu haqq: səhabələrə kin bəsləyənə kin bəsləmək, böhtanını rədd etmək, onlara qarşı olan düşmənçiliyin qarşısını almaq

Bu onları sevməyin bir hissəsi və onların (Allah onlardan razı olsun) haqqını güclü şəkildə müdafiə etməkdir.

***"Onun əhli-beytini və səhabələri biz müdafiə edərik,***
***Bütünlüklə onların sevgisini biz etiqad edərik".***[113]

Təhavi (Allah ona rəhmət etsin) demişdir: "Səhabələrə nifrət edənlərə və onları xeyirdən başqa bir şeylə xatırlayanlara biz də nifrət edirik".[114] Bunun dəlili Allah rəsulunun (ﷺ) bu sözüdür: *"İmanın ən möhkəm bağı Allah üçün sevmək və Allah üçün nifrət etməkdir".*[115] Şəkk yoxdur ki, Allah üçün nifrət edilməyə ən layiqli olanlar hörmətli səhabələrə (Allah onlardan razı olsun) tənə edənlərdir. Səhabələrin düşmənlərinə qarşı çıxmaq, onlara atılan böhtanları dəf etmək və şübhələrinin yalan olduğunu sübut etmək Allah yolunda olan ən böyük cihadlardan sayılır.

---

[113] "Nazm əl-Cövhəra əl-Fəridə fi təhqiqi əl-Əqidə", 43
[114] "əl-Əqidətut-Tahəviyyə" məa şərh ibn Əbil-İzz, 467
[115] "əl-Mucəm əs-Sağir", 624; li ət-Təbərani, Şeyx Albani "əs-Silsilə əs-Sahihə"də hədisə həsən demişdir.

## Onuncu haqq: səhabələri nümunə götürmək və onların yoluna yönəlmək

Əhli-sünnə və camaatın mənhəci "Onların ən üstün elmi səhabələrin elminə müvafiq olan və ən üstün əməlləri səhabələrin əməlinə müvafiq olandır. Onlar səhabələrin (Allah onlardan razı olsun) bütün fəzilətli əməllər və tərifəlayiq xüsusiyyətlər baxımından özlərindən üstün olduqlarını görürlər"[116] əsasına dayanmışdır.

***"Onları örnək götürmək bir fərzdir dində,***
***Uy onlara, ayət və surələrə tabe ol sən də".***[117]

İmam Əhməd xəbər vermişdir ki, əhli-sünnənin əsaslarından biri də "Allah rəsulunun (ﷺ) səhabələrinin yolundan möhkəm yapışmaq və onları örnək götürməkdir".[118] Raşidi imam Ömər ibn Əbdüləziz (Allah ona rəhmət etsin) demişdir: "Səhabələrin özləri üçün seçib razı qaldıqları şeyləri sən də özün üçün seç. Çünki onlar bildikləri halda, susmuş, iti bəsirətdən dolayı (çəkinilməsi gərəkən şeylərdən) imtina etmişlər".[119]

Artıq uca Allah xeyirli səhabələrin ardınca gedənləri bu sözündə təriflənmişdir: ***"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. (Allah) Onlar üçün (ağacları və qəsrləri) altından çaylar axan içində əbədi qalacaqları cənnətlər hazırlamışdır. Bu, böyük uğurdur"***.[120]

Həmçinin uca Allah demişdir: ***"Mənə üz tutanların yoluna tabe ol"***.[121] Şəkk yoxdur ki, peyğəmbərlərdən sonra bu vəsfə ən çox layiq olanlar səhabələrdir.

Həmçinin pak və nöqsansız olan demişdir: ***"Ey iman gətirənlər! Allahdan qorxun və sadiqlərlə birlikdə olun".***[122] Dahhək demişdir:

---

[116] "Şərh əl-Əqidə əl-Əsfhəniyyə", 124; li Şeyx İslam ibn Teymiyyə
[117] "Divan ibn Muşrif", 23
[118] "Üsul əs-Sünnə" – Abdus ibn Məlikin rəvayəti, 25. Həmçinin əl-Ləlakəi də bunu "Şərh Üsul əl-İtiqad əhli-sünnə" əsərində imam Əhməddən rəvayət etmişdir.
[119] Əbu Davud, 4612; Şeyx Albani "Səhih Sünən Əbu Davud"da demişdir: "Səhih məqtudur". (4612)
[120] "ət-Tövbə", 100
[121] "Loğman", 15
[122] "ət-Tövbə", 119

"Əbu-Bəkr, Ömər və onların yoldaşları ilə birlikdə olun (Allah onlardan razı olsun)".[123]

Allah rəsulu (ﷺ) həlakdan və oda daxil olmaqdan xilas olanların vəsfi barədə soruşulduqda demişdir: *"Mənim və səhabələrimin yolu üzərində olanlar"*.[124]

Hüzeyfə (Allah ondan razı olsun) demişdir: "Ey qarilər! Allahdan qorxun və sizdən öncəkilərin yolundan yapışın, and olsun ki, əgər onların yolu ilə getsəniz, çox önə getmiş olarsınız. Yox, əgər onların yolundan sağa-sola meyil etsəniz, uzaq bir azğınlığa düşmüş olarsınız".[125]

Yuxarıda qeyd olunanlar dəlalət edir ki, səhabələrin (Allah onlardan razı olsun) yolu ilə getmək hidayətdir və qurtuluş onunladır.

(Bu kitabçanı) İbn Kəsirin (Allah ona rəhmət etsin) "Uca Allahın Kafirlər iman gətirənlərə dedilər: ***"Əgər (Quran) xeyirli bir şey olsaydı, ona (yetişməkdə) bizi qabaqlaya bilməzdilər"***[126] sözünü təfsir edərkən dediyi gözəl bir kəlmə ilə tamamlamaq istəyirəm. Buyurur ki: "Əhli-sünnə və camaat səhabələrdən sabit olmayan hər bir sözün və əməlin bidət olduğunu deyirlər. Çünki (onlardan varid olmayan söz və əməl) xeyirli olsaydı, ona yetişməkdə bizi qabaqlayardılar, ona görə ki səhabələr tələsmədikləri xeyirli bir xislət saxlamamışdırlar".[127]

Sonra isə bu, Məhəmmədin (ﷺ) ümməti üzərində vacib olan tam on haqdır ki, özündə xeyirli səhabələrin haqlarını və əhli-sünnənin onlar barədə müxtəsər etiqadını cəm edir. Mən onları bu iki beytdə cəm etmişəm:

***"Sev onları, adildirlər, arasında var daha üstünlər,***
***Xeyirlə yada sal, çıxarma yaddan, onlardan razıdır uca Yaradan.***

***De, düşmənləri mənə düşməndir, şahid ol, məskənləri uca cənnətdir,***
***O fitnələrə gəl baş vurma sən, onlar örnəkdirlər bizə bəşərdən".***

---

[123] "Təfsir əl-Quran əl-Azim", 7 / 314
[124] Tirmizi, 2641; Şeyx Albani "Sahih Sünən Tirmizi"də həsənləşdirmişdir. (2641)
[125] "Cəmiu Bəyən əl-İlmi va Fadlihi", 2 / 947; Buxari, 7282 – buna yaxın ləfzlə
[126] "əl-Əhqaf", 11
[127] "Təfsir əl-Quran əl-Azim", 13 / 12

Daha sonra demək istəyirəm ki, uca Allah daha yaxşı bilir, Onun qulu və elçisi peyğəmbərimiz Məhəmmədə, onun ailəsinə, səhabələrinə və ona gözəl şəkildə tabe olanlara Allahın bərəkəti, salamı və salavatı olsun!

**Mündəricat**

Müqəddimə……………………………………………………….3
Səhabənin tərifi…………………………………………………...6
Birinci haqq: onları sevmək………………………………………..9
İkinci haqq: onların fəzilətlərinə, ədalətli olmalarına, bu ümmətin ən üstünləri və kamilləri olmalarına, haqqa və düzgünlüyə ən yaxın olduqlarına etiqad etmək……………………………………………………….…11
Üçüncü haqq: dəlillərdə varid olduğu kimi səhabələrin birinin digərindən üstün olmasına etiqad etmək…………………………………………….……………17
Dördüncü haqq: səhabələri daim xeyirlə yada salmaq, mədh etmək və onların etdiyi gözəl əməlləri yaymaq……………………………………………………..21
Beşinci haqq: Allahın onlara rəhm etməsinə və onların cənnət əhli olduqlarına ümumi olaraq şahidlik etmək. Kitab və sünnədə (cənnət əhli olduqları) müəyyən edilmiş səhabələrə isə xüsusi olaraq şahidlik etmək………………………………………………………..22
Altıncı haqq: onlar üçün dua etmək, Allahdan bağışlanma istəmək və adları çəkiləndə "Allah onlardan razı olsun" demək……………………………………………………......23
Yeddinci haqq: onların xətaları barədə susmaq və bu haqda bilinən xəbərlərə göz yummaq……………………………..……………………..25
Səkkizinci haqq: səhabələrin arasında baş verən mübahisələr barədə susmaq və onlara girişməmək…………………………………………..…..27
Doqquzuncu haqq: səhabələrə kin bəsləyənə kin bəsləmək, böhtanını rədd etmək, onlara qarşı olan düşmənçiliyin qarşısını almaq…………………………………………………….…30
Onuncu haqq: səhabələri nümunə götürmək və onların yoluna yönəlmək…………………………………………..……………..31